## BİZİM ŞÜAR:

**“NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!”**

## UNUTMA!

### Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

| Sıra | Rayonların adı | Sahəsi | Kənd və digər yaşayış məntəqələrinin sayı | İşğal zamanı əhalinin sayı | İşğal olunduğu tarix | Şəhidlərin sayı | Milli Qəhrəmanların sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 302 kv.km | 25 (25) | 18 min nəfər | 1991 | 102 nəfər | — |
| 2 | Xocavənd | 1458 kv.km | 78 (78) | 10 min nəfər | 18.02.1992 | 145 nəfər | — |
| 3 | Xocalı | 926 kv.km | 65 (65) | 12 min nəfər | 26.02.1992 | 3200 (613) | 10 nəfər |
| 4 | Şuşa | 289 kv.km | 30 (30) | 25 min nəfər | 08.05.1992 | 250 nəfər | 3 nəfər |
| 5 | Laçın | 1835 kv.km | 126 (126) | 60 min nəfər | 18.05.1992 | 262 nəfər | 5 nəfər |
| 6 | Kəlbəcər | 1936 kv.km | 124 (124) | 68 min nəfər | 02.04.1993 | 200 nəfər | 2 nəfər |
| 7 | Ağdərə | 1705 kv.km | 58 (58) | 49 min nəfər | 17.06.1993 | 145 nəfər | — |
| 8 | Ağdam | 1094 kv.km | 121 (80) | 150 min nəfər | 23.07.1993 | 5000 nəfər | 15 nəfər |
| 9 | Cəbrayıl | 1050 kv.km | 90 (89) | 59 min nəfər | 23.08.1993 | 381 nəfər | 6 nəfər |
| 10 | Füzuli | 1392 kv.km | 75 (51) | 100 min nəfər | 23.08.1993 | 1000 nəfər | 8 nəfər |
| 11 | Qubadlı | 802 kv.km | 95 (95) | 30 min nəfər | 31.08.1993 | 200 nəfər | 10 nəfər |
| 12 | Zəngilan | 707 kv.km | 83 (83) | 35 min nəfər | 30.10.1993 | 200 nəfər | 3 nəfər |
| | Cəmi: | 13490 kv.km | 970 | 616 min nəfər | — | 10085 nəfər | 62 nəfər |

*Qeyd: Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

## AZƏRBAYCAN ƏHALİSİNİN SAYI AÇIQLANIB:

### 9 milyon 676 min 500 nəfər

Bu ilin əvvəlindən Azərbaycan əhalisinin sayı 83,5 min nəfər və ya 0,9% artaraq oktyabr ayının 1-i vəziyyətinə 9 mln. 676 min 500 nəfərə çatıb.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bir kvadrat kilometrə əhalinin sıxlığı 112 nəfərdir. Əhalinin 53,1%-i şəhər, 46,9%-i isə kənd sakinləridir. Əhalinin 49,8%-ni kişilər, 50,2%-ni isə qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1009 qadın düşür.

Bu 9 ay ərzində ölkədə 123,3 min körpə doğulub və əhalinin hər 1000 nəfərinə bu göstərici 17,3 təşkil edib. Doğulan körpələrin 53,2%-ni oğlan, 46,8%-ni qız uşaqları təşkil edir. Doğulan körpələrdən 2238-i əkiz, 66-sı isə üçəmdir.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən bu ilin yanvar-sentyabr ayları ərzində 41 min ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9-dan 5,7-yə qədər azalıb.

**AZƏRTAC**

## HƏRBİ XƏBƏRLƏR

### RUSİYA YENİ BALLİSTİK RAKET İSTEHSAL EDİB



Rusiyanın ən yeni ballistik raketi olan “Sarmat”ın prototipi istehsal edilib. SİTA informasiya agentliyinin yaydığı xəbərdə bildirilir ki, Krasnoyarsk maşınqayırma zavodunda istehsal edilən raketin uçuş-konstruktor sınaqlarının 2016-cı ilin yaz-yay aylarında Plesetsk kosmodromunda keçirilməsi planlaşdırılır. Raketin işəsalma qurğusunun quraşdırılması üzrə işlər 2016-cı ilin mart ayında başa çatdırılmalıdır.

Qeyd edək ki, “Sarmat” strateji raket kompleksi 15A18M ağır raketləri ilə təchiz olunan sovet istehsalı “Voyevoda” R-36M2 komplekslərini əvəz edəcək. Yeni raket 4 tona yaxın nüvə başlığını 10 min km-ə qədər məsafəyə daşıya biləcək. “Sarmat”ın tək ballistik trayektoriya üzrə deyil, eyni zamanda atmosferin yuxarı qatlarında da hərəkət etmək imkanına malik olacağı bildirilir.

### ABŞ YENİ NÜVƏ BOMBASINI SINAQDAN KEÇİRİB



ABŞ yeni modernləşdirilən B61-12 nüvə bombasının sınaq təlimlərini yekunlaşdırıb.

Amerika mediasında dərc edilmiş xəbərə görə, Nüvə Təhlükəsizliyinin İdarə olunması Milli Agentliyindən bildirilib ki, təlimlər Nevada ştatındakı Tonopa poliqonunda həyata keçirilib.

Lakin təlim beynəlxalq konvensiyaya uyğun olaraq, nüvə başlığı olmadan keçirilib.

Bomba F-15E təyyarəsindən idarəolunan rejimdə atılıb.

Xatırladaq ki, B61-12 bombası B61-in 12-ci modefikasiyasıdır və ilk nümunəsi 1960-cı ildə istehsal olunub.

Bombanın serialı istehsalına 2020-ci ildə başlanacaq. Bu silah B61-3, B61-4, B61-7 və B61-10 bombalarını əvəz edəcək.

## İNSAN HÜQUQLARI VƏ ƏSAS AZADLIQLARI HAQQINDA AVROPA KONVENSİYASI

*(əvvəli ötən saylarımızda)*

**Maddə 43. İşin Böyük Palataya verilməsi**

**1.** Palatanın qərar çıxarmasından sonrakı üç ay müddət ərzində, iş üzrə istənilən tərəf, müstəsna hallarda, işin Böyük Palataya verilməsini tələb edə bilər.

**2.** Əgər iş bu Konvensiya və onun Protokollarının müddəalarının şərhi və ya tətbiqinə dair ciddi məsələlər və ya ümumi xarakterli digər ciddi məsələlər yaradırsa, Böyük Palatanın beş hakimdən ibarət Kollegiyası tələbi qəbul edir.

**3.** Kollegiya tələbi qəbul edirsə, onda Böyük Palata qərar çıxarmaqla işi həll edir.

**Maddə 44. Qəti qərarlar**

**1.** Böyük Palatanın qərarı qətidir.

**2.** Palatanın qərarı aşağıdakı hallarda qəti olur:

**a)** tərəflər işin Böyük Palataya verilməsi barədə müraciət etməyəcəklərini bəyan etdikdə;

**b)** Əgər işin Böyük Palataya verilməsi barədə müraciət edilməyibsə, qərar çıxarılan tarixdən üç ay sonra;

**c)** Böyük Palatanın Kollegiyası 43-cü maddəyə müvafiq olaraq verilmə haqqında müraciəti rədd etdikdə.

**3.** Qəti qərar dərc olunur.

**Maddə 45. Qərar və qərardadların əsaslandırılması**

**1.** Qərarlar, həmçinin şikayətləri qəbul edilən və ya qəbul olunmayan elan edən qərardadlar əsaslandırılmalıdır.

**2.** Əgər qərar bütövlükdə və ya qismən hakimlərin yekdil rəyini ifadə etmirsə, onda hər hansı hakim xüsusi rəy verə bilər.

**Maddə 46. Qərarların məcburi qüvvəsi və icrası**

**1.** Razılığa gələn Yüksək Tərəflər, Məhkəmənin onların tərəf olduqları işlər üzrə yekun qərarına riayət etməyi öhdələrinə götürürlər.

**2.** Məhkəmənin yekun qərarı onun icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.

**Maddə 47. Məsləhətçi rəylər**

**1.** Məhkəmə Nazirlər Komitəsinin müraciəti ilə Konvensiya və onun Protokollarının müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhətçi rəylər verə bilər.

**2.** Belə rəylər Konvensiyanın II bölməsi və onun Protokollarında müəyyən edilən hüquq və azadlıqların məzmun və həcminə dair hər hansı məsələyə, yaxud Məhkəmənin və ya Nazirlər Komitəsinin Konvensiyaya müvafiq olaraq, hər hansı müraciətə baxarkən toxunmalı olduğu digər məsələlərə aid olmamalıdır.

**3.** Məhkəmənin məsləhətçi rəy verməsi üçün Nazirlər Komitəsinin müraciəti, Komitənin iştirak etmək hüququ olan nümayəndələrin səs çoxluğu ilə qəbul edilir.

**Maddə 48. Məhkəmənin məsləhət yurisdiksiyası**

Məsləhətçi rəy vermək haqqında Nazirlər Komitəsi tərəfindən edilən müraciətin Məhkəmənin səlahiyyətinə aid olub-olmamasını, 47-ci maddədə müəyyən edildiyi kimi, Məhkəmə özü həll edir.

**Maddə 49. Məsləhətçi rəylərin əsaslandırılması**

**1.** Məhkəmənin məsləhətçi rəyləri əsaslandırılmalıdır.

**2.** Əgər məsləhətçi rəy ümumilikdə və ya qismən hakimlərin yekdil rəyini əks etdirmirsə, onda hər hansı hakim xüsusi rəy vermək hüququna malikdir.

**3.** Məhkəmənin məsləhətçi rəyləri Nazirlər Komitəsinə təqdim edilir.

**Maddə 50. Məhkəmənin saxlanılması xərcləri**

Məhkəmənin saxlanması xərclərini Avropa Şurası ödəyir.

**Maddə 51. Hakimlərin imtiyaz və immunitetləri**

Hakimlər öz funksiyalarını yerinə yetirərkən Avropa Şurası Nizamnaməsinin 40-cı maddəsində və onun əsasında bağlanmış sazişlərdə nəzərdə tutulan imtiyaz və immunitetlərə malikdirlər.

**III BÖLMƏ**

**ÜMUMİ MÜDDƏALAR**

**Maddə 52. Baş Katibin sorğuları**

Avropa Şurası Baş Katibinin müraciəti əsasında hər bir Razılığa gələn Yüksək Tərəf öz daxili hüququnun, bu Konvensiyanın hər hansı müddəasının səmərəli tətbiqini necə təmin edəcəyi ilə bağlı izahat təqdim edir.

**Maddə 53. Bu insan hüquqları ilə bağlı təminatlar**

Bu Konvensiyada heç nə hər hansı Razılığa gələn Yüksək Tərəfin qanunvericiliyi və ya onun Tərəf olduğu hər hansı digər sazişlə təmin edilə bilən insan hüquqları və əsas azadlıqlarından hər hansını məhdudlaşdırmaq və ya onlardan geri çəkilmə kimi şərh oluna bilməz.

**Maddə 54. Nazirlər Komitəsinin səlahiyyətləri**

Bu Konvensiyada heç nə Avropa Şurası Nizamnaməsinin Nazirlər Komitəsinə verdiyi səlahiyyətlərə xələl gətirmir.

**Maddə 55. Mübahisələrin digər vasitələrlə tənzimlənməsindən imtina**

Razılığa gələn Yüksək Tərəflər, xüsusi saziş istisna olmaqla, bu Konvensiyanın müddəalarının şərhi və tətbiqi ilə bağlı mübahisələri petisiya yolu ilə baxışa verərkən, onlar arasında qüvvədə olan müqavilələrə və ya bəyannamələrə müraciət etməyəcəklərinə və bu Konvensiyada nəzərdə tutulanlardan başqa mübahisələrin tənzimlənməsi vasitələrindən istifadə etməməyə razılıq verirlər.

**Maddə 56. Ərazi tətbiqi**

**1.** Hər hansı Dövlət imzalanma, yaxud ratifikasiya zamanı və ya sonradan istənilən vaxt Avropa Şurasının Baş Katibinə ünvanlanmış bildiriş vasitəsilə Konvensiyanın, bu maddənin 4-cü bəndi nəzərə alınmaqla, beynəlxalq əlaqələrinə görə onun cavabdehlik daşıdığı bütün ərazilərə, yaxud onlardan hər hansı birinə şamil ediləcəyini bəyan edə bilər.

**2.** Konvensiya bildirişdə adı çəkilən əraziyə və ya ərazilərə Avropa Şurasının Baş Katibi bildirişi aldıqdan 30 gün sonra şamil edilir.

**3.** Bu Konvensiyanın müddəaları belə ərazilərdə yerli şəraitin lazımi qaydada nəzərə alınması ilə tətbiq edilir.

**4.** Bu maddənin 1-ci bəndinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 57. Qeyd-şərtlər**

**1.** İstənilən dövlət bu Konvensiyanı imzalayarkən və ya onun ratifikasiya sənədini depozitə verərkən Konvensiyanın hər hansı konkret müddəası ilə bağlı, o dövrdə, onun ərazisində qüvvədə olan bu və ya digər qanunun həmin müddəaya uyğun olmaması ilə əlaqədar qeyd-şərt verə bilər. Bu maddəyə müvafiq olaraq, ümumi xarakterli qeyd-şərtlərə yol verilmir.

**2.** Bu maddəyə uyğun olaraq edilmiş istənilən qeyd-şərt müvafiq qanunun qısa məzmununu əks etdirməlidir.

**Maddə 58. Denonsasiya**

**1.** Razılığa gələn Yüksək Tərəf, yalnız bu Konvensiyanın tərəfi olduğu tarixdən 5 il keçdikdən sonra və bu barədə digər Razılığa gələn Yüksək Tərəfləri məlumatlandıracaq Avropa Şurasının Baş Katibinə ünvanlanmış, xəbərdarlığın əks olunduğu, bildirişi göndərdikdən 6 ay sonra bu Konvensiyanı denonsasiya edə bilər.

**2.** Denonsasiya müvafiq Razılığa gələn Yüksək Tərəfi denonsasiyanın qüvvəyə minəcəyi tarixədək törədə biləcəyi və bu Konvensiya üzrə öhdəliklərini poza biləcək hər hansı əməlinə münasibətdə belə öhdəliklərindən azad etmir.

**3.** Avropa Şurasının üzvlüyündən çıxan hər hansı Razılığa gələn Yüksək Tərəf eyni şərtlərlə bu Konvensiyanın da Tərəfi olmur.

**4.** Konvensiya 56-cı maddəyə əsasən, onun şamil olunmasının bəyan edildiyi istənilən əraziyə münasibətdə əvvəlki bəndlərin müddəalarına müvafiq olaraq denonsasiya edilə bilər.

**Maddə 59. İmzalama və ratifikasiya**

**1.** Bu Konvensiya Avropa Şurası üzvləri tərəfindən imzalanmaq üçün açıqdır. O, ratifikasiya olunmalıdır. Ratifikasiya sənədi Avropa Şurasının Baş Katibinə saxlanmaya verilir.

**2.** Bu Konvensiya on ratifikasiya sənədi saxlanmaya verildikdən sonra qüvvəyə minir.

**3.** Sonradan ratifikasiya edən dövlətlər üçün Konvensiya onların ratifikasiya sənədlərini saxlanmaya verdikləri tarixdən qüvvəyə minir.

**4.** Avropa Şurasının Baş Katibi Konvensiyanın qüvvəyə minməsi, onu ratifikasiya etmiş Razılığa gələn Yüksək Tərəflərin adları və sonradan qüvvəyə minmiş bütün ratifikasiya sənədlərinin saxlanmaya verilməsi haqqında Avropa Şurasının bütün üzv dövlətlərini xəbərdar edir.

4 noyabr 1950-ci ildə Roma şəhərində, hər iki mətni bərabər autentik olmaqla, ingilis və fransız dillərində, Avropa Şurasının arxivində saxlanacaq bir nüsxədə icra olunmuşdur. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş nüsxələri hər bir imzalayan dövlətə göndərəcəkdir.

3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir.

Roma, 4.XI.1950

21 sentyabr 1970-ci ildə qüvvəyə minmiş 3 saylı Protokolla,

20 dekabr 1971-ci ildə qüvvəyə minmiş 5 saylı Protokolla,

1 yanvar 1990-cı ildə qüvvəyə minmiş 8 saylı Protokolla,

1 noyabr 1998-ci ildə qüvvəyə minmiş 11 saylı Protokolla dəyişikliklər və əlavələr edilmişdir.

*(davamı gələn sayımızda)*

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 22 (464)
30 noyabr
2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## “AZƏRBAYCAN SABİTLİK BAXIMINDAN DÜNYADA SEÇİLƏN ÖLKƏLƏRDƏNDİR”

***Noyabrın 24-də Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası keçirilib. İclasda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib.***

Beşinci çağırış Milli Məclisin öz işinə başlaması münasibətilə millət vəkillərini ürəkdən təbrik edən dövlətimizin başçısı əminliklə qeyd edib ki, deputatlar ölkəmizin hərtərəfli inkişafına öz dəyərli töhfəsini verəcəklər, Milli Məclisin işi çox səmərəli olacaq və Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir.

Ölkə prezidenti cənab İlham Əliyev vurğulayıb ki, noyabrın 1-də keçirilmiş seçkilər Azərbaycan xalqının iradəsini tam ifadə etmişdir: “Seçkilər şəffaf, ədalətli şəkildə, yüksək rəqabət şəraitində keçirilmişdir. Beynəlxalq və yerli müşahidəçilər bunu təsdiq etmişlər. Beş yüzdən çox beynəlxalq, on minlərlə yerli müşahidəçi seçki prosesini və seçkilər gününü izləmiş, müşahidələr aparmışdır. Ümumi fikir belə olmuşdur ki, bu seçkilər ən yüksək beynəlxalq standartlara cavab verir, Azərbaycan xalqı bu seçkilərdə öz iradəsini azad şəkildə ifadə etmişdir”.

Dövlət başçısı Azərbaycanın son illərdəki nailiyyətlərinin artıq nəinki ölkə daxilində, xaricdə də böyük rəğbətlə qeyd edildiyini deyərək, ölkəmizin beynəlxalq nüfuzunun yüksəldiyini, Azərbaycanın etibarlı tərəfdaş kimi tanındığını diqqətə çatdırıb.

O qeyd edib ki, son illərdə dünya miqyasında iqtisadi baxımdan sürətlə inkişaf edən ölkə də Azərbaycandır. Əlbəttə, biz bunu böyük uğur kimi qəbul edirik. Bu gün bütün mötəbər beynəlxalq maliyyə-iqtisadi qurumlar bu reallıqları təsdiq edir və Azərbaycanı bəzi ölkələr üçün nümunə kimi göstərir”.

Ölkəmizdə sabitliyin təmin edilməsindən, günü-gündən möhkəmlənməsindən söz açan Respublika Prezidenti deyib ki, hər bir ölkə üçün sabitlik başlıca şərtdir: “Sabitlik pozulduqda, əlbəttə ki, ölkə inkişaf edə bilməz, ölkəyə sərmayə cəlb





etmək mümkün olmaz və ölkə öz etibarlılığını itirə bilər. Azərbaycanda sabitlik xalqın iradəsi ilə təmin edilir. Xalq tərəfindən bizim siyasətimizə verilən dəstək ölkəmizdə, cəmiyyətimizdə bu gözəl ab-havanı yaradıbdır. Bu gün Azərbaycan sabitlik baxımından dünyada seçilən ölkələrdəndir, xüsusilə, indiki şəraitdə. Biz görürük ki, müxtəlif yerlərdə, müxtəlif bölgələrdə, bizim bölgədə, Yaxın Şərqdə, Avropada, MDB məkanında sabitlik pozulur. Çox xoşagəlməz proseslər gedir. Azərbaycan düşünülmüş siyasət apararaq sabitliyi möhkəmləndirir. Bu, əlbəttə ki, bizim uğurlu inkişafımız, gələcək uğurlu inkişafımız üçün də əsas şərt olaraq qalır”.

Ölkə başçısı qarşıda duran bəzi vəzifələr haqqında da fikirlərini bildirib: “Baxmayaraq ki, son illər ərzində böyük uğurlar əldə edilib, həll olunmamış, həllini gözləyən problemlər var. Biz öz fəaliyyətimizi bu problemlərin həllinə yönəltməliyik. Problemlərin arasında birinci məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Əlbəttə ki, son illər ərzində bu sahədə heç bir irəliləyiş yoxdur. Ona görə ki, Ermənistan tərəfi sülh istəmir, münaqişəni həll etmək istəmir. Vaxt uzatmaq istəyir, müxtəlif bəhanələrlə danışıqlardan boyun qaçırır, təmas xəttində törədilən təxribatları da, Azərbaycanın bu təxribatlara adekvat cavabını da bəhanə kimi gətirir ki, danışıqlar prosesini pozsun”.

Prezident İlham Əliyev deyib ki, əgər bu gün Ermənistanın arxasında güclü himayədarlar olmasa idi, bu məsələ çoxdan öz həllini tapardı: “Ermənistan təkbaşına, xarici yardım almadan bizim qabağımızda duruş gətirə bilməzdi. Əlbəttə, bu gün Azərbaycan Ermənistandan bir neçə dəfə güclüdür, üstündür. Ancaq o da həqiqətdir ki, erməni lobbisi və müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatları öz rolunu oynayır. Bu təşkilatlar müvafiq ölkələrin hökumətlərinə də təsir göstərir. Bax, bu amil bu gün münaqişənin həllində ən böyük əngəldir. Çünki Ermənistan təkbaşına beynəlxalq hüququ kobudcasına, bu dərəcədə kobud şəkildə poza bilməzdi.

Yenə də deyirəm, Azərbaycan öz yolu ilə gedəcək. Heç bir ölkə qondarma “Dağlıq Qarabağ qurumu”nu tanımır, tanımayacaqdır. Biz buna heç vaxt imkan verməyəcəyik, öz diplomatik, siyasi səylərimizi gücləndirəcəyik”.

Ölkə Prezidenti hərbi potensialın gücləndirilməsinin də dövlətin əsas prioritetlərdən olduğunu bildirib: “Son illərdə bu sahədə də böyük uğurlar əldə edilib. Ordumuzun döyüş qabiliyyəti artır. Ən müasir texnika, silah-sursat alınır. Bu gün beynəlxalq müstəvidə Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bu proses davam etdirilir. Baxmayaraq, bizim təbii ki, büdcə gəlirlərimiz azalıbdır. Ancaq hərbi xərclər ən prioritet məsələdir. Çünki bir daha demək istəyirəm ki, bu, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və ümumiyyətlə, ölkəmizin təhlükəsizliyini təmin etmək üçün lazımdır”.

Prezident İlham Əliyev çıxışının sonunda bir daha qeyd edib ki, bu ilin iqtisadi və sosial göstəriciləri bunu göstərir ki, hətta böhranlı illərdə də Azərbaycan iqtisadiyyatı sürətlə və uğurla inkişaf edə bilər: “Təhlükəsizlik, fəal xarici siyasət, iqtisadi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə, güclü hərbi potensial və əsas dəyərlərə sədaqətimiz, sadiqliyimiz - bizim üçün gələcəyə gedən yol budur. Azərbaycan müasir dövlətdir, ancaq dərin milli-mənəvi dəyərlər üzərində qurulan bir dövlətdir. Milli dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Azərbaycan müstəqillik yolu ilə gedir və gedəcək. Biz müstəqilliyimizi qoruyuruq və qoruyacağıq”.

**mayor R.Sarıyev**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Giorgi Mğebrişvili ölkəmizə rəsmi səfərə gəlib.**

Noyabrın 26-da səhər cənab Giorgi Mğebrişvili və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülüb. Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Daha sonra respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov Gürcüstanın daxili işlər naziri Giorgi Mğebrişvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları səmimi salamlayan nazir xalqlarımız arasındakı dostluğun qədim tarixə malik olduğunu, ikitərəfli münasibətlərin qurulmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin danılmaz xidmətlərini xatırladıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan rəhbərliyinin ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə xüsusi önəm verdiklərini qeyd edib. Cənab Ramil Usubov bu münasibətlərin ölkə başçılarının siyasi iradəsinə uyğun uğurla inkişaf etdiyini, dövlət və hökumət rəhbərlərinin qarşılıqlı səfərləri nəticəsində daha da dərinləşdiyini bildirib. Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın, xüsusilə də transmilli cinayətkarlıqla mübarizə sahəsində birgə əlaqələrin, təcrübə və informasiya mübadiləsinin və yaradılmış normativ-hüquqi bazanın ilk növbədə dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyi nəzərə çatdırılıb.

Daha sonra nazir Ramil Usubov ölkədəki kriminogen durum barədə qısa məlumat verib.

O da bildirilib ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb, bunun əyani təzahürü olaraq respublikamız "Evrovision" və I Avropa Oyunları kimi möhtəşəm yarışlara uğurla ev sahibliyi edib, həmin tədbirlərin yüksək təhlükəsizlik və əmin-amanlıq şəraitində keçirilməsinə nail olmaqla bu sahədə böyük təcrübə qazanıb.

Daxili işlər naziri mövcud problemlərdən də danışıb, transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Cənab Giorgi Mğebrişvili səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, transmilli mütəşəkkil cinayətkarlığa qarşı yalnız birgə səylərlə mübarizə aparılmasına dair cənab Ramil Usubovun mövqeyini bölüşdüyünü, mehriban qonşu və yaxın dost olan Azərbaycanın daxili işlər orqanları ilə ölkəsinin müvafiq qurumları arasında əlaqələrin bundan sonra daha da inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidze iştirak edib.

## DÖVLƏT BAYRAĞI MEYDANINDA DAXİLİ QOŞUNLARIN GƏNC ƏSGƏRLƏRİNİN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

*Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov gənc əsgərləri hərbi and içmələri münasibətilə təbrik edib*



**Noyabrın 14-də Dövlət Bayrağı Meydanında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının gənc əsgərlərinin təntənəli Hərbi andiçmə mərasimi keçirilib. Mərasimdə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov iştirak edib.**

Qoşunların Veteranlar Şurasının üzvlərinin və əsgər valideynlərinin də qatıldığı mərasimdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.



Sonra gənc əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına söz veriblər.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov hərbi andı qəbul edən gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib.

Hərbi andiçmə mərasimi gənc əsgərlərin təntənəli keçidi ilə başa çatıb.



Qeyd edək ki, mərasimdən sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov Dövlət Bayrağı Meydanına toplaşmış əsgər valideynləri ilə görüşərək onların istək və təkliflərini dinləyib.

**Mətbuat xidməti**

Şəhidlərimiz

# “NƏ QƏDƏR Kİ, CANIMDA CAN VAR, QORUYACAM VƏTƏNİMİZİ!”

Sıravi Kərimov Rövşən Ağabba oğlu 1973-cü il aprelin 3-də Göyçay rayonunun Bəydövül kəndində dünyaya göz açmışdı. Ağabba kişinin və Şura ananın böyüdüb boya-başa çatdırdığı dörd övladdan (Rəxşəndə, Zemfira, Rövşən və Elşən) biri və eyni zamanda ailənin üçüncü övladı idi. Bir müddət sonra kərimovlar ailəsi Sumqayıta köçdüyündən, Rövşən burada böyüyüb boya-başa çatmış və səkkizillik təhsilini də 1980-1988-ci illərdə şəhərdəki 24 və 28 saylı orta məktəblərdə almışdı. Uşaq yaşlarından şeirə, ədəbiyyata böyük maraq göstərib. Yaxşı təhsil almaqla yanaşı, həm də gözəl şeirlər yazıb. 1988-1991-ci illərdə doğma şəhərdəki 7 saylı texniki peşə məktəbində təhsilini davam etdirərək, “qaynaqçı” peşəsinə yiyələnib. Rövşən hərbi xidmətə çağırılana qədər sevimli peşəsi üzrə “Qafqazelektromontaj” idarəsində əmək fəaliyyəti ilə məşğul olub.

Silahdaşımızın qardaşı Elşən Kərimov onun istedadlı və intizamlı şagird olduğu üçün hər kəs tərəfindən sevildiyini deyir: “... Rövşən məndən bir yaş böyük idi. Uşaqlıqdan mehriban, deyibgülən, eyni zamanda çalışqan şagird olduğu üçün qohum-qonşular və məktəb müəllimləri onun xətrini çox istəyirdi...

Olduqca vətənpərvər, qorxubilməz bir gənc idi. Rövşən kimi Vətənini sevən gənclərimizlə ancaq qürur duymaq olar. Bu səbəbdən də övladıma Rövşənin adını qoymuşam”.

Elşən bir müddət söhbətinə ara verərək, sovet ordusunun Sumqayıtda yerləşən hərbi hissəsində xidmət edən və əslən Özbəkistandan olan əsgərlərlə birgə çəkdirdikləri fotoşəklə baxaraq uşaqlıq xatirələrini yenidən dilə gətirdi: “... bu Rövşənin tez-tez baxdığı ən sevimli şəkillərindən biri idi. O, bu şəklə baxıb: “Mən də əsgər olacam. Vətənimizi qoruyacam” - deyirdi...”.

1992-ci ilin aprel ayında Sumqayıt Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılan Rövşən, Daxili Qoşunların Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsinin sıravi hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır. Bir qədər sonra isə Ağdam və Ağdərə rayonlarının bir sıra yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə fəal iştirak edir.

Sıravi R.Kərimov sonralar qoşunlarda ştat dəyişikliyi ilə əlaqədar olaraq, hissə və bölmələrin yenidən komplektləşdirilməsi nəticəsində xidmətini Daxili Qoşunların Sumqayıtda yerləşən “N” saylı hərbi hissəsində davam etdirir.

İgid döyüşçünün anası Şura xala övladının hərbi xidmətə getməsi ərəfəsində onunla bağlı xatirələrini bölüşərkən bunları dedi:

“Bir gün Rövşən gəlib dedi ki, ana, mən gedirəm Vətəni qorumağa. Hərbi xidmətdən qayıtdıqdan sonra, təhsilimi davam etdirəcəm. Diplomatı vardı.



KƏRİMOV RÖVSƏN AĞABBA OĞLU

İçinə çoxlu kitablar yığmışdı. Deyirdi ki, ana, mən oxuyacam. Amma öncə Vətəni qorumaq lazımdı. Nə vaxt olsa, oxumaq olar. Çoxlu şeirləri vardı. Sonuncu dəfə “Ana, məni bağışla” adlı şeir yazmışdı...”.

Rövşənin bu şeirindən yadigar qalmış bir bənd “Sumqayıt” qəzetinin 02 oktyabr 1993-cü il tarixli sayında dərc edilmişdir:

*Bilirsən dərdimi özümdən artıq,*
*Rövşənəm olmuşam Kərəmtək yanıq.*
*Qəlbini kövrəltsə zalım ayrılıq,*
*Məni ürəyində qınama, Ana!*

Şura xala sözünə bir qədər ara verib, yenidən Rövşənlə bağlı xatirələrini dilə gətirdi: “...Qabaqlar tez-tez yuxuma girərdi. İndi isə görmürəm. “Qorxmayın! Nə qədər ki, canımda can var, qoruyacam Vətənimizi” – deyərdi. Həmişə “Kişi Vətəni qoruyar! Kişi gizlənməz!” – deyərdi...

Yaraşıqlı, göyçək oğlan idi. Atası Rövşənin dərdinə dözə bilmədi. Elə “Rövşən...” - deyərək də dünyasını dəyişdi...”.

Vaxtı ilə birgə xidmət etdiyi silahdaşları onu nizam-intizamlı və nümunəvi hərbi qulluqçu kimi bu gün də böyük iftixar hissi ilə xatırlayırlar. O dövrdə Daxili Qoşunların Sumqayıtda yerləşən “N” saylı hərbi hissəsinin komandiri olmuş polkovnik Çingiz Daşdəmirovun (hazırda Daxili Qoşunların Baş İdarəsinin İnspeksiyasında rəis müavini - A.Ə) qəhrəman döyüşçü haqqında söylədiyi xatirələrindən də bunu görmək olar: “Rövşəni çox yaxşı tanıyırdım. O, döyüş meydanlarında düşmənə layiq olduğu cavabı verməyi bacaran əsl qəhrəman idi. Qarabağda erməni işğalçılarına qarşı aparılan bir sıra əməliyyatlarda fəal iştirak etmişdi...

O zamanlar ölkə daxilində sabitliyin tez-tez pozulması şəraitində Bakı və Sumqayıtda yerləşən hərbi hissələr tərəfindən şəhərlərdə komendant postları təşkil edilməklə, ictimai vəziyyət nəzarətdə saxlanılırdı. Bu postlarda xidmətə cəlb olunan hərbi qulluqçular öz vəzifə borclarını şərəflə yerinə yetirir, silahlı dəstələrin tərksilah olunmasında fəal iştirak edirdilər. Sıravi R.Kərimov da məhz belə hərbi qulluqçulardan idi. Ümumiyyətlə, Rövşən hərbi hissədə nizam-intizamlı və fəal hərbi qulluqçu kimi böyük hörmət qazanmışdı. Onun yaxşı əl qabiliyyəti və şairlik məharəti də vardı. Xidmət etdiyi bölükdə divar qəzetlərinin tərtibatında yaxından iştirak edərdi. Tərtib etdiyi və şəxsi heyətin döyüş ruhunu yüksəldən divar qəzetlərindən də onun əsl vətənpərvər olduğu sezilirdi...”.

**23.09.1993-cü il.** Cəsur silahdaşımız ömrünün payız çağında xidməti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak oldu. Sıravi R.Kərimov Vətən uğrunda əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəldi...

Bu barədə görkəmli ziyalımız Tofiq Əliyevin 1998-ci ildə Sumqayıtda nəşr olunmuş “Sumqayıtın qan yaddaşı” adlı 1-ci kitabında maraqlı məlumatlar verilib. Müəllif Rövşənin Gəncə şəhərində hərbi qulluğa başladığını, Ağdərə rayonu uğrunda erməni faşistlərinə qarşı döyüşdüyünü və sonralar Sumqayıtdakı “N” saylı hərbi hissədə xidmətini davam etdirdiyini qeyd edir: “... Komandanlığın əmri ilə Rövşən Kərimovun qulluq etdiyi batalyon Sumqayıt şəhərinə gətirilmişdi.

1993-cü ilin payızında “sapı özümüzdən olan baltalar” Prezident Heydər Əliyevin əleyhinə qüvvələr toplayıb, dövlət çevrilişinə cəhd göstərmişlər. Bu vaxt gənc Rövşən Kərimov və onun silahdaşları suveren respublikamızı və onun Prezidenti Heydər Əliyevin ətrafında sıx birləşərək onun müdafiəsinə qalxmış, daxili düşmənlərə qarşı mərdliklə vuruşmuşlar”.

Müəllif məqaləsində həmçinin sıravi R.Kərimovun sentyabrın 23-də öz xidməti vəzifə borcunu yerinə yetirərkən “sapı özümüzdən olan baltalar” tərəfindən həlak olduğunu və Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanında dəfn edildiyini bildirir.

Sıravi R.Kərimovun həyat və döyüş yolu barədə məlumatlara həmçinin “Sumqayıt” qəzetinin 02.10.1993-cü il tarixli sayında “Vətən sizi unutmayacaq” başlıqlı məqalədə və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Məlumat üçün qeyd edək ki, Daxili Qoşunların Arxivindən verilmiş müvafiq arayışda da sıravi R.Kərimovun 23.09.1993-cü il tarixdə kəskin qanitirmə nəticəsində həlak olduğu və Daxili Qoşunlar üzrə “1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı”nda 314-cü sıra nömrəsi ilə qeydə alındığı göstərilib.

Rövşən kimi cəsur silahdaşlarımız Daxili Qoşunların tərkibində xidmətlərini bu gün də şərəflə davam etdirirlər. Sıralarında vətənpərvər oğulların xidmət etdiyi Azərbaycan Ordusu işğal altında olan müqəddəs torpaqlarımızı düşməndən azad etməyə hər zaman hazırdır.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan Anar Əhmədov,**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**